AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin "Qarşılıqlı razılıq proseduru" maddəsinə uyğun olaraq müraciətlərin edilməsi ilə bağlı Bələdçi

## Mündəricat


1. Giriş.

1.1. Qarşılıqlı razılıq prosedurunun aparılmasına dair müraciətlərin hüquqi əsası.

2. Qarşılıqlı razılıq prosedurunun aparılması ilə bağlı müraciətin edilməsi.
3. Qarşılıqlı razılıq prosedurunun mərhələləri və hüquqi mexanizmlərin təsiri.
4. Xarici ölkənin (ərazinin) səlahiyyətli qurumunun qarşılıqlı razılıq prosedurunun aparılması üçün müraciətinə Dövlət Vergi Xidmətində baxılması.
5. Qarşılıqlı razılıq prosedurunun həlli.


**Bu sənəddəki məlumat yalnız Bələdçi kimi verilir və peşəkar məsləhət, o cümlədən hüquqi məsləhət deyildir. Bələdçi geniş tərkibli sənəd olmadığı üçün aparılan hər bir vergi tutulan əməliyyatlara münasibətdə cavabı özündə əks etdirmir.**

## 1. Giriş

Bu sənəd Azərbaycan Respublikası ilə müvafiq xarici dövlət arasında imzalanmış və qüvvəyə minmiş gəlirə və əmlaka münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrə (bundan sonra – beynəlxalq müqavilə) uyğun olaraq həyata keçirilən qarşılıqlı razılıq prosedurunun aparılmasına dair müraciətlərə baxılması və razılıq prosedurunun təşkil olunması (bundan sonra – qarşılıqlı razılıq proseduru) qaydasını müəyyən edir.

Qarşılıqlı razılıq prosedurunun əsas məqsədi Azərbaycan Respublikasının və ya beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkənin (ərazinin) rezidenti olan vergi ödəyicisi (bundan sonra – vergi ödəyicisi) tərəfindən beynəlxalq müqavilənin müddəalarına uyğun olmayan vergitutma ilə nəticələnən və ya nəticələnə biləcək mübahisələrin həllidir. Bu mübahisələrin yarana biləcəyi hallar aşağıdakılardır:

- şəxsin hər iki dövlətin rezidenti hesab olunduğu hal;
- daimi nümayəndəliyin mövcud ola bilməsi halı;
- daimi nümayəndəliyə aid edilə bilən gəlirə düzəlişlərin edilməli olduğu hal;
- transfer qiymətinin tətbiqindən yaranmış və ya yarana biləcək düzəlişlərin aparılması halı;
- beynəlxalq müqavilənin müddəalarının düzgün şəkildə şərh və tətbiq edilmədiyi hal.

Qarşılıqlı razılıq proseduru yalnız beynəlxalq müqavilələrdə qeyd olunan müvafiq səlahiyyətli orqanlar arasında həyata keçirilir. Qarşılıqlı razılıq prosedurunun aparılması üçün müraciət müvafiq beynəlxalq müqavilənin müddəalarına uyğun olmayan vergitutma ilə nəticələnən hərəkətlər haqqında ilk məlumat əldə edildiyi və ya əldə edilməli olduğu tarixdən etibarən, əgər beynəlxalq müqavilədə başqa müddət nəzərdə tutulmayıbsa, üç il ərzində təqdim edilməlidir. Müraciətə baxılması vergi ödəyicisini hesablanmış verginin ödənilməsindən azad etmir və Vergi Məcəlləsində nəzərdə tutulmuş faizlərin hesablanması dayandırılmır.

Bu sənəd “Transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması barədə qərar”ın qəbul edilməsi ilə bağlı müraciətlərin baxılmasını tənzimləmir.

Əgər zərurət yaranarsa Bələdçi vaxtaşırı dəyişdirilə bilər.

### 1.1. Qarşılıqlı razılıq prosedurunun aparılmasına dair müraciətlərin hüquqi əsası.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Gəlirə və Əmlaka münasibətdə Model Vergi Konvensiyasının 25-ci maddəsi razılığa gələn dövlətlərdən birinin və ya hər ikisinin hərəkətləri nəticəsində vergi ödəyicilərinin beynəlxalq müqavilənin müddəalarına uyğun olmayan vergitutma ilə nəticələnən və ya nəticələnə biləcək mübahisələrin həlli üsullarını müəyyən edir. Beynəlxalq müqavilələrin "Qarşılıqlı razılıq proseduru" maddəsinin 2-ci hissəsinə uyğun olaraq Dövlət Vergi Xidməti yaranan mübahisəni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərir.

Azərbaycan Respublikasının bağladığı əksər beynəlxalq müqavilələrdə vergi ödəyiciləri tərəfindən qarşılıqlı razılıq proseduru üzrə müraciətlərin yalnız rezident olduqları dövlətlərin səlahiyyətli qurumlarına edilə bilməsi əks olunmuşdur. Azərbaycan Respublikası tərəfindən 20 noyabr 2023-cü il tarixində imzalanmış "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiyanı"nın (MLI) müddəaları qüvvəyə mindikdən sonra bir sıra beynəlxalq müqavilələrin "Qarşılıqlı razılıq proseduru" maddələrinə düzəlişlər ediləcəkdir. Edilən düzəlişlərə əsasən vergi ödəyiciləri Razılığa gələn Dövlətlərdən istənilən birinin səlahiyyətli orqanlarına müraciət edə biləcəklər.

## 2. Qarşılıqlı razılıq prosedurunun aparılması ilə bağlı müraciətin edilməsi

Vergi ödəyicisi qarşılıqlı razılıq prosedurunun aparılması üçün aşağıda göstərilən məlumatları və sənədləri əlavə etməklə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra - Dövlət Vergi Xidməti) Aparatına elektron və ya kağız daşıyıcısında müraciət ünvanlamalıdır. Müraciət, həmçinin Dövlət Vergi Xidmətinin **map@taxes.gov.az** elektron poçt ünvanına da göndərilə bilər.

Qarşılıqlı razılıq prosedurunun aparılması ilə bağlı müraciətdə aşağıdakı məlumatlar əks olunmalıdır:

- hüquqi şəxslər üçün – hüquqi şəxsin adı, hüquqi və faktiki ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, telefon nömrəsi, elektron poçt ünvanı; fiziki şəxslər üçün – şəxsin soyadı, adı, atasının adı (varsa), qeydiyyatda olduğu ünvan, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, telefon nömrəsi, elektron poçt ünvanı;
- beynəlxalq müqaviləyə istinad edilərək məsələnin əsas faktları, habelə Azərbaycan Respublikasında və (və ya) beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkədə (ərazidə) tətbiq olunan vergitutma qaydalarının beynəlxalq müqavilənin müddəaları ilə uyğunsuzluğu barədə ətraflı məlumat;
- gəlirin, mənfəətin və ya əmlakın vergiyə cəlb edilməsinin qüvvədə olan beynəlxalq müqavilənin müddəalarının pozulması ilə iddia olunan dövr haqqında məlumat;
- vergi ödəyicisinin hər hansı bir orqanda qarşılıqlı razılıq proseduru üzrə müraciətinin olması barədə məlumat;
- beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkənin (ərazinin) səlahiyyətli orqanlarına qarşılıqlı razılıq proseduru üzrə müraciətin olub-olmaması barədə məlumat;
- qüvvədə olan “Transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması barədə qərar”lar (APA) haqqında məlumat;

Müraciətə aşağıdakı sənədlər əlavə edilməlidir:

- müqavilələrin və onların əlavələrinin surətləri;
- vergi yoxlaması materiallarının surətləri;
- beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkə (ərazi) tərəfindən təqdim olunan rezidentlik sertifikatının surəti;
- səlahiyyətli nümayəndənin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsdiq edilmiş etibarnaməsinin surəti;
- müvafiq beynəlxalq müqavilənin müddəalarına uyğun olmayan vergitutma ilə nəticələnən hərəkətlər haqqında ilk məlumatın əldə edildiyi tarixi təsdiq edən sənəd;
- müraciət transfer qiymətləri ilə bağlı olduqda, Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2017-ci il 27 yanvar tarixli 1717050000006200 nömrəli Qərarı ilə təsdiq edilmiş “Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi” Qaydalarının tələblərinə əsasən müəyyən edilən sənədlər;
- müraciət edilən məsələ üzrə digər aidiyyəti sənədlər.

Vergi ödəyicisi təqdim etdiyi məlumatların və sənədlərin dəqiqliyini və həqiqiliyini müraciətində təsdiq etməli və məsələnin həlli ilə bağlı əlavə məlumat və sənəd vergi orqanı tərəfindən tələb olunduğu halda, müvafiq sənədlərin və məlumatların tələb olunduğu müddətdə vergi orqanına təqdim olunmasını təmin etməlidir. Sənədlər və məlumatlar yalnız Azərbaycan və ya ingilis dillərində qəbul olunur.

**3. Qarşılıqlı razılıq prosedurunun mərhələləri və hüquqi mexanizmlərin təsiri.**

*Birinci mərhələ - Müraciətin qəbul edilməsi*

Vergi ödəyicisinin qarşılıqlı razılıq prosedurunun aparılması ilə bağlı vergi orqanına müraciəti daxil olduğu tarixdən 10 gün ərzində vergi orqanı tərəfindən vergi ödəyicisinə və xarici ölkənin (ərazinin) səlahiyyətli qurumuna belə müraciətin daxil olması barədə məlumat göndərilir.
Dövlət Vergi Xidməti qarşılıqlı razılıq prosedurunun aparılması üçün vergi ödəyicisinin qarşılıqlı razılıq prosedurunun aparılması üçün müraciətinin daxil olduğu tarixdən 30 gün ərzində, əlavə vaxt tələb olunduğu halda, səbəbi əsaslandırılmaqla, müraciətə baxılma müddətini hər dəfə 30 gün olmaqla iki dəfə uzadaraq qeyd olunan müraciətə və ona əlavə edilmiş sənədlərə və məlumatlara baxır və qarşılıqlı razılıq prosedurunun aparılması və ya qarşılıqlı razılıq prosedurunun aparılmasından imtina edilməsi barədə əsaslandırılmış qərar qəbul edir və bu qərarı müraciət edən vergi ödəyicisinə göndərir.

Dövlət Vergi Xidməti tərəfindən qarşılıqlı razılıq prosedurunun aparılmasından aşağıdakı hallarda imtina edilir:

i. beynəlxalq müqavilənin mövcud olmadığı və ya müraciət edilən məsələnin beynəlxalq müqavilə ilə əhatə olunmadığı halda;
ii. Bələdçinin 1-ci hissəsində nəzərdə tutulan və beynəlxalq müqavilənin müddəalarına uyğun olmayan vergitutma ilə nəticələnən hərəkətlər haqqında ilk məlumat əldə edildiyi və ya əldə edilməli olduğu tarixdən etibarən, əgər beynəlxalq müqavilədə başqa müddət nəzərdə tutulmayıbsa, üç illik müddət keçdiyi halda;
iii. aşağıda əks olunan müddət nəzərə alınmaqla, müraciətdə əks olunan məlumatlar və ona əlavə edilmiş sənədlər natamam şəkildə təqdim olunduğu halda.

Müraciət edən şəxs tərəfindən sənədlər və ya məlumatlar natamam təqdim edilmişdirsə, vergi orqanı müraciət edən şəxsə məktub göndərməklə çatışmayan sənədlərin və məlumatların 15 gün müddətində təqdim olunmasını tələb edir.

Vergi ödəyicisinə bu Bələdçinin 3-cü hissəsinin iii) yarımbəndinin tələbinə uyğun olaraq imtina edildiyi halda, onun tərəfindən, müvafiq çatışmayan məlumatlar və sənədlər əldə edildikdən sonra, qarşılıqlı razılıq prosedurunun aparılması üçün yenidən Dövlət Vergi Xidmətinə müraciət oluna bilər.

Transfer qiymətləri və transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması ilə bağlı müraciətlərə baxılması Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2017-ci il 27 yanvar tarixli 1717050000006200 nömrəli Qərarı ilə təsdiq edilmiş "Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi" Qaydaları ilə müəyyən edilir.

*İkinci mərhələ - Müraciətin birtərəfli həlli*

Dövlət Vergi Xidməti qarşılıqlı razılıq prosedurunun aparılması ilə bağlı müvafiq qərar qəbul etdikdən sonra beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkənin (ərazinin) səlahiyyətli qurumuna qarşılıqlı razılıq prosedurunun başlanılması ilə bağlı müraciət göndərir və yazılı məsləhətləşmələr əsasında müraciətin başlanma tarixini müəyyən edir.

Əgər, müraciətdə qaldırılan məsələnin qanunamüvafiqliyini Dövlət Vergi Xidməti qəbul edirsə və müraciətin birtərəfli həlli mümkündürsə Dövlət Vergi Xidməti beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkənin (ərazinin) səlahiyyətli qurumu ilə məsləhətləşmələr aparmadan məsələnin həllini təmin edir və bu barədə müvafiq məlumatı vergi ödəyicisinə və xarici ölkənin (ərazinin) səlahiyyətli qurumuna göndərir.

*Üçüncü mərhələ - ikitərəfli həll*

Qarşılıqlı razılıq prosedurunda qaldırılan məsələnin birtərəfli həll edilməsi mümkün olmadığı təqdirdə, Dövlət Vergi Xidməti beynəlxalq müqavilənin müddəalarına uyğun olaraq ikiqat vergitutma halının aradan qaldırılması məqsədilə beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkənin (ərazinin) səlahiyyətli qurumu ilə məsələnin həll edilməsi üçün məsləhətləşmələr aparır. Əgər, müraciətdə göstərilən məsələ ilə bağlı inzibati orqanda və ya məhkəmədə eyni məzmunlu işə baxılırsa, Dövlət Vergi Xidməti bu barədə beynəlxalq müqaviləyə tərəfdar çıxan

xarici ölkənin (ərazinin) səlahiyyətli qurumuna məlumat verir və qarşılıqlı razılıq prosedurunun aparılmasını müvafiq çəkişmə bitənə qədər dayandırır.

Qarşılıqlı razılıq prosedurunun başlanılması ilə bağlı müraciət xarici ölkənin (ərazinin) səlahiyyətli qurumuna daxil olduğu tarixdən 24 ay müddətindən gec olmayaraq Dövlət Vergi Xidməti müraciətdə qaldırılmış məsələnin həll edilməsinə səy göstərməlidir. Bu müddət 24 ay ilə məhdudlaşmır və tərəflərin məsələnin həll edilməsinə nail olacağı dövrədək uzana bilər.

Beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkənin (ərazinin) səlahiyyətli qurumu ilə qarşılıqlı razılıq prosedurunda qaldırılan məsələ ilə bağlı razılığın əldə edilməsi mümkün olduğu təqdirdə, razılığın əldə olunması təsdiq olunan tarixdən sonra 30 gün müddətində qarşılıqlı razılıq prosedurunun aparılması ilə bağlı Dövlət Vergi Xidmətinə müraciət etmiş vergi ödəyicisinə yazılı şəkildə məlumat verilməlidir.
Səlahiyyətli orqanlar arasında əldə olunmuş razılıq vergi ödəyicisini qane etmədiyi təqdirdə, vergi ödəyicisi müvafiq ölkələrin (ərazilərin) yerli qanunvericiliklərində əks olunan bütün hüquqi vasitələrdən istifadə etməklə həm inzibati orqana, həm də müvafiq məhkəməyə şikayət göndərə bilər.

Vergi ödəyicisi, səlahiyyətli orqanlar arasında əldə olunmuş qarşılıqlı razılığı qəbul etdiyini yazılı şəkildə Dövlət Vergi Xidmətinə bildirərsə, Dövlət Vergi Xidməti qarşılıqlı razılığa uyğun olaraq onun icrasını təmin edir və bununla bağlı müvafiq tədbirlər görür. Əgər müvafiq məsələ ilə bağlı inzibati orqanda və ya məhkəmədə analoji işə baxılırsa, vergi ödəyicisi həmin işdən çıxana qədər, Dövlət Vergi Xidməti müvafiq tədbirlərin görülməsini təxirə salır.

Qarşılıqlı razılıq prosedurunun aparılması üçün Dövlət Vergi Xidmətinə müraciət edən vergi ödəyicisi istənilən vaxt öz müraciətinin etibarsız hesab edilməsi ilə bağlı Dövlət Vergi Xidmətinə müraciət edə bilər. Bunun üçün vergi ödəyicisi müraciətinin etibarsız hesab edilməsi səbəblərini yazılı şəkildə Dövlət Vergi Xidmətinə məktub göndərməklə bildirməlidir. Dövlət Vergi Xidməti qarşılıqlı razılıq prosedurunun aparılması üçün müraciətin etibarsız hesab edilməsinə dair məktubu aldıqdan sonra, qarşılıqlı razılıq prosedurunun xarici ölkənin (ərazinin) səlahiyyətli qurumu ilə aparılmasını dayandırır və məktubun Dövlət Vergi Xidmətinə daxil olduğu tarixdən 30 gün ərzində xarici ölkənin (ərazinin) səlahiyyətli qurumuna məlumat verir.

**4. Xarici ölkənin (ərazinin) səlahiyyətli qurumunun qarşılıqlı razılıq prosedurunun aparılması üçün müraciətinə Dövlət Vergi Xidmətində baxılması**

Müvafiq beynəlxalq müqavilənin müddəalarına uyğun olaraq xarici ölkənin (ərazinin) səlahiyyətli qurumu qarşılıqlı razılıq prosedurunun aparılması üçün Dövlət Vergi Xidmətinə müraciət edə bilər. Müraciətə bu Bələdçinin 2-ci hissəsində göstərilən məlumatlar və sənədlər əlavə edildikdə müraciət baxılması üçün qəbul edilir. Əgər müvafiq sənədlərdə və məlumatlarda çatışmamazlıq varsa Dövlət Vergi Xidməti müvafiq sənədlərin və məlumatların təqdim edilməsi ilə bağlı xarici ölkənin (ərazinin) səlahiyyətli qurumuna sorğu göndərir.

Dövlət Vergi Xidməti xarici ölkənin (ərazinin) səlahiyyətli qurumunun qarşılıqlı razılıq prosedurunun aparılması üçün daxil olan müraciətini 90 gün ərzində araşdırır və onun əsaslı olub-olmadığı barədə mövqeyini xarici ölkənin (ərazinin) səlahiyyətli qurumuna yazılı şəkildə bildirir.

Dövlət Vergi Xidməti beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkənin (ərazinin) səlahiyyətli qurumunun müraciətini əsaslı hesab etdikdə, ikiqat vergitutmanın və beynəlxalq müqavilənin müddəalarına uyğun olmayan vergitutma ilə nəticələnən hərəkətlərin aradan qaldırılması ilə bağlı müvafiq tədbirlər həyata keçirir və bu barədə xarici ölkənin (ərazinin) səlahiyyətli qurumuna yazılı şəkildə məlumat verir.

Dövlət Vergi Xidməti və xarici ölkənin (ərazinin) səlahiyyətli qurumu arasında müraciətdə qaldırılmış məsələyə dair fikir ayrılığı yarandığı və məsələnin həll edilməsinə nail olunmadığı təqdirdə, Dövlət Vergi Xidməti məsələyə dair mövqeyini beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkənin (ərazinin) səlahiyyətli qurumuna yazılı şəkildə bildirir.

**5. Qarşılıqlı razılıq prosedurunun həlli.**

İkiqat vergitutmanın və beynəlxalq müqavilənin müddəalarına uyğun olmayan vergitutma ilə nəticələnən hərəkətlərin aradan qaldırılması ilə bağlı Dövlət Vergi Xidmətinin həyata keçirəcəyi tədbirlərə aşağıdakılar aiddir:

- müvafiq bəyannamələrə düzəlişlərin edilməsi;
- artıq ödənilmiş vergilərin qaytarılması;

- ödənilmiş vergilərin nəzərə alınması;
- ödənilmiş vergilərin təsdiq edilməsi;
- və sair tədbirlər.